# Ukraynanın Azərbaycandakı səfiri ilə COP29-a hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb



Ukraynanın Azərbaycan Respublikasındakı səfiri Yuri Qusev ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə görüşüb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanın bu il evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq tədbirləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2024.- 1 avqust (№ 161).- S.10.